**office**

| | |
|---|---|
| **От:** | Vətən_Naminə <dadasovi370@gmail.com> |
| **Отправлено:** | 17 октября 2024 г. 15:28 |
| **Кому:** | office@barassociation.az |
| **Тема:** | Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Sədrinə |
| **Вложения:** | IMG-20230721-WA0002.jpg; image.jpg |

Hörmətli sədr Sizə şəxsən və ailəm adından təşəkkür edirəm.

Mən 2000-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini bitirmişəm, daha sonra 2000-2003.cü illər arasında xidmət etdikdən sonra ehtiyata buraxılmışam.

27 sentyabr 2020.ci ildə ikinci Qarabağ Vətən Müharibəsi başladıqdan bir müddət sonra 07.10.2020.ci il tarixində sərəftbərliklə ordu sıralarına cağırılaraq xidmətə başlamışam.

Nəzərinizə çatdırmaq istəyirəm ki, müharibə zamanı xidmət etdiyim zaman öz qrupum ilə Ordu Kopusunuzun 3 döyüş yol təminatını, Ağdərə yolunun minalanmasını, düşmənin qurduqları tank əleyhinə sahəsində minaya düşən tanklarımızın çıxarılmasında, Ağdərə istiqamətində olan N nömrəli yüksəkliyi şəxsən irəli çəkilməsini və əlavə bir neçə döyüş tapşırıqlarının yerinə yetirilməsində iştirak etmişəm. Rəis və komandirlərim tərəfindən müsbət xaraterizə edilən zabitlərdən biri olmaqla yanaşı , həmdə Dövlət Başçımız Silahlı Qüvvələrimizin Ali Baş Komandanı Cənab İlham Əliyevin sərəncamları ilə Ağdamın, Suqovşanın azad edilməsinə görə, Cəsur döyüşçü və Vətən müharibəsi iştirakçısı medalı ilə təltif olunaraq, müharibə veteranı vasitəsi ilə təltif edilmişəm.

Xidmətim dövründə heç bir nöqsana yol verməditim halda 2021-ci ilin fevral ayında Müdafiə Nazirliyindən qanunsuz olaraq təxsir edildim. Təxris edildikdən sonra vəkil axtarmağa başladım. Mənimlə eyni haqsızlıqla üzləşən zabit yoldaşım ilə rastlaşdıqdan sonra 20 saylı vəkillər bürosunun vəkili Fikrət Nüsrət oğlu İbrahimov ilə əlaqə saxlamağı məsləhət gördü. Beləliklə mən vəkil Fikrət müəllim ilə əlaqə saxlamalı oldum.Bundan sonra Fikrət müəllim mənə təmənnasız olaraq köməylik göstərəcəyini bildirdi və öz köməkliyini məndən bir vəkil olaraq əsirgəmədi.

Vəkil Fikrət Nüsrət oğlu İbrahimovun mənə təmənnasız dəstəyi sayəsində sonda məhkəmə Şirvan İnzibati Məhkəməsinin hakimi hakim Pərvanı xanım Qurbanova mənim barəmdə ədalətli qərar verərək ədaləti təmin etdi.

Bu hadisələri Sizə bildirməyi və Sizin rəhbəri olduğunuz kollegiyanın tabeçiliyində fəaliyyət göstərən şərəfli vəkillərin və o cümlədən də vəkilim Fikrət Nüsrət oğlu İbrahimovun təqdirə layiq fəaliyyətlərini dəyərləndirilməyinizi nəzərinizə çatdırmağı özümə bir mənəvi borc bildim.

Öncədən öz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Böyük hörmətlə ikinci Qarabağ Müharibəsi iştirakçısı və veteranı Dadaşov İlkin Eldar oğlu.

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3943
«17» 10 2024 il